

UĞUR HEKAYƏSİ
SÖHBƏTLƏŞDİ:
AYGÜN ASİMQIZI
aygunasimqizi@kaspi.az

XARİCDƏ BAŞIMIZI UCA EDƏN SOYDAŞLARIMIZ

# YAPONİYADA ÇALIŞAN AZƏRBAYCANLI

**Ziya Axundov: "Risk etmək lazımdır. Mən birinci dəfə ehtiyat edib xaricdə iş təklifinə "yox" demişdim. Böyük şirkətlərdə işləyənlərin texnoloji savadları, dünyagörüşləri bizim insanların texniki savadından, dünyagörüşündən çox deyil"**



İlk dəfə xarici ölkədən iş təklifi alanda tərəddüd edir. Düşünür ki, beynəlxalq təcrübəsi yoxdur, birdən gedər, idarə edə bilməz və s. İndi təcrübəli şəxs olaraq yanaşanda deyir ki, ovaxtkı təcrübəsi o işi görməyə tam qadir idi. Ancaq ikinci təklifdən imtina etmir və ondan sonra artıq karyerasına xarici şirkətlərdə davam edir. Söhbət Yaponiyanın texnoloji yeniliklərin tətbiqi cəhətdən öndə gedən 4-cü böyük mobil operatoru "Rakuten Mobile"da "Ağıllı Şəbəkə Təminatı" bölməsinin meneceri vəzifəsində çalışan azərbaycanlı Ziya Axundovdan gedir.

Qeyd edək ki, Z.Axundov 1984-cü ildə Neftçala rayonunun Qaçaqkənd kəndində anadan olub və orta təhsilini başa vurduqdan sonra Bakı Dövlət Universitetində fizika üzrə təhsil alıb. Karyerasına "Bakcell" şirkətində texniki mühəndis olaraq başlayıb və şirkətdə baş mühəndis vəzifəsinə qədər gəlib. Daha sonralar "T-Mobile", "Vodafone", "Huawei", "Nokia", "MCI" kimi dünyanın bir çox nəhəng innovativ telekom şirkətlərində işləyib.

## SEÇİMİM TƏSADÜFİ OLDU

**● Ziya bəy, telekom hazırda tələb olan sahələrdəndir. Sizin iş həyatına başladığınız dövrdə tələb necə idi? Seçiminizi nəyə əsasən etmişdiniz?**

● Düzü, həmin dövrdə tələbin necə olması haqqında heç bir məlumatım yox idi. Bakalavr təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Pedaqoji Universitetində magistr təhsili qazandım. Həmin ərəfədə təxminən 20-dən çox şirkətə iş üçün müraciət etsəm də, heç birindən müsbət cavab ala bilmirdim. Elə oldu ki, bir neçə ay sonra "Bakcell"də işə düzəlmə şansım oldu. İşə qəbul olduqdan sonra artıq seçim qarşısında idim, ya magistr təhsilimi davam etdirməli, ya da işə başlamalı idim. Seçimim iş oldu, magistraturanı dayandırdım. Çünki maliyyə çətinliyim var idi. Fizikada isə qiyabi təhsil yox idi, əgər olsaydı, paralel apara bilərdim. Sahə seçiminə gəlincə, planlı olaraq telekommunikasiyaya yönəlmədim. Sadəcə, özümə uyğun gördüyüm iş yerlərinə müraciət edirdim və ilk olaraq telekom şirkətindən qəbul aldım və bu sahədə də davam etdim.

## "İŞƏ BƏLƏD OLDUQCA SEVMƏYƏ BAŞLADIM"

**● İlk iş təcrübəniz bu idi?**

● Tələbə vaxtı müxtəlif işlərdə çalışmışam. İnternet klubda texniki işlərdə və s. İxtisaslı iş olaraq ilk telekomda başladım.

**● Yəqin ki, telekomu bəyənməsəydiniz, qalmazdınız.**

● Düzdür, telekom əvvəldən məqsədli çalışmaq istədiyim sahə deyildi. İşlədikcə, işə bələd olduqca sevməyə başladım. Çünki telekomda iş rutin deyil. Test mühəndisindən optimallaşdırma mühəndisinə qədər gəldim. 7 il orda çalışdım, həmin müddətdə 4-5 vəzifə dəyişmişdim, amma gördüyüm heç bir işdə rutinlik olmadı. Mobil texnologiya hər gün yenilənir. Texnologiyanı izləmək də çətindir. Çox dəyişkənlik var. Aylar, illər sərf etdiyin texnologiya bir ildən sonra sıradan çıxa bilər. İnsanı özünə cəlb edir, çətindir, amma maraqlıdır.

> *"Rakuten Mobile" artıq 8-ci iş yerimdir. Əvvəlki iş yerlərimlə müqayisə etsək, ortaq cəhətləri də var, fərqlilikləri də. İş mühitinin, çalışma metodlarının yüzdəyüz fərqli olduğunu deyə bilmərəm. 50-60 faiz oxşardır.*

## "ƏVVƏL BİR AZ RİSK ETMƏDİM"

**●Sonrakı iş yerləriniz ancaq xarici şirkətlər olub?**

● Əslində, mobil operatordan sonra Azərbaycanda telekom sahəsində başqa bir şirkətə keçdim, çox qısa müddət orda çalışdım. Artıq mobil operatorda işləyəndə müxtəlif ölkələrdən gələn mütəxəssislərlə tanışlığım yaranmışdı və eyni zamanda xarici şirkətlərdə açıq olan vakansiyalara da müraciət etməyə başlamışdım. Beləliklə, başqa ölkədəki ilk işim Hollandiyanın "T-Mobile" operatoru oldu. Əvvəl bir az risk etmədim, tərəddüdlərim var idi, amma sonra risk edib, getdim. Bu bir layihə idi. 6 ay orda işlədim.

**● Niyə tərəddüd edirdiniz?**

● Yəqin ki, komfort zonada idim və bunu tərk etməyə risk edə bilmirdim. Təxminən 2010-cu ildə Rusiyadan - "Huawei" şirkətindən iş təklifi gəlmişdi. O zaman getməyə risk etmədim. Sonralar Türkiyədən bir tanışımın təklif olunan yerə getdiyini eşitdim. Bununla da başa düşdüm ki, şans insana çox verilmir və vaxtında dəyərləndirmək lazım idi. Bu, mənim üçün təcrübə oldu. 2013-cü ildə Hollandiyada iş imkanı yarananda artıq risk etdim. Həmin işdən sonra artıq klassik iş rejimindən çıxıb, dəyişkən iş rejiminə keçdim, daha uzun müddət heç bir yerdə komfort zonada qalmadım.

## 8-Cİ İŞ YERİ

**● Hazırda isə Yaponiyanın 4-cü böyük mobil operatorunda işləyirsiniz. Dünyada ən son texnologiyaların tətbiq olunduğu bir şirkətdir. Bu şirkəti əvvəllər çalışdığınız iş yerləri ilə müqayisə etsək, işdə, iş mühitində hansı fərqlər var?**

● "Rakuten Mobile" artıq 8-ci iş yerimdir. Əvvəlki iş yerlərimlə müqayisə etsək, ortaq cəhətləri də var, fərqlilikləri də. İş mühitinin, çalışma metodlarının yüzdəyüz fərqli olduğunu deyə bilmərəm. 50-60 faiz oxşardır. Ancaq təkcə mənim çalışdığım şirkətlər yox, elə Yaponiya daxilində fəaliyyət göstərən şirkətlərdən də fərqlənir. Bu şirkət texnoloji yeniliklərlə doludur. Şirkətin sahibi onu dünya bazarına çıxarmaq istəyir. Bacardığı qədər ən son texnologiyaları tətbiq edir. Müxtəlif ölkələrdən burda çalışanların sayı çoxdur. Çox savadlı olanı da var, orta savadlı olanı da. Tam fərqli mühitdir, başqa şirkətlərdə bu mühiti görə bilmir- siniz.

